# “Norm” Açıq Səhmdar Cəmiyyətinin 2021-ci il üzrə illik idarəetmə hesabatı

İllik hesabat Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən 03 fevral 2016-cı ildə təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalar"a uyğun olaraq hazırlanmışdır.

"Norm" ASC-nin İllik idarəetmə hesabatına daxil olan məlumatlar aşağıda göstərilir:

1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi:**

   1.1.Tam adı: "Norm" Açıq Səhmdar Cəmiyyəti
   1.2.Qısaldılmış adı: "Norm" ASC
   1.3.VÖEN-i: 1400972921
   1.4.Dövlət qeydiyyatının tarixi və nömrəsi: 4 may 2006-cı il, 1400972921 (əvvəlki dövlət qeydiyyat nömrəsi: 0106-P216-45772)

2. **Emitentin hüquqi ünvanı və olduğu yer:**

   AZ1083, Bakı şəhəri, Qaradağ rayonu, Ümid qəsəbəsi, Salyan şossesi, Səngərqaya-1 yolu, 7-ci km 1.

3. **Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**

   Çevrilmə: 04.11.2019-cu il.
   Əvvəlki hüquqi şəxs: NORM Məhdud Məsuliyyətli Cəmiyyəti
   Hazırki hüquqi şəxs: NORM Açıq Səhmdar Cəmiyyəti

4. **Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:**

   Hesabat dövrü ərzində emitent tərəfindən heç bir filial və nümayəndəlik yaradılmamış və ləğv edilməmişdir.

5. **Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:**

   Hesabat dövrü ərzində emitentin heç bir yaranmış və ləğv edilmiş törəmə cəmiyyəti olmamışdır.

6. **Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:**

   Emitent heç bir şirkətlər qrupunun hissəsi deyil.

7. **Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:**

7.1.Sement istehsalı və satışı:
7.2.Digər istehsal yönümlü fəaliyyət.

8. **Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:**

| № | Fəaliyyət növü | Lisenziyalar (qüvvədə olma müddəti) | Xüsusi icazələr (qüvvədə olma müddəti) |
|---|---|---|---|
| 1. | Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı | Müddətsiz | |
| 2. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması | Müddətsiz | |
| 3. | Radioaktiv maddələrdən istifadə ilə əlaqədar işlər üzrə Xüsusi icazə | | 3 il (22.01.2021 - 22.01.2024) |
| 4. | İonlaşdırıcı şüa mənbələri hesab edilən qurğuların istismarı üzrə Xüsusi icazə | | 3 il (25.12.2020 - 25.12.2023) |
| 5. | Atmosferə atılan tullantılar | | 3 il (23.08.2021 - 23.08.2024) |

9. **Emitentin təklif etdiyi məhsullar və xidmətlər:**

Sement məhsulları:kisə məhsullar və qalaq məhsullar.

10. **Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:**

| № | | 2021-ci ilin birinci rübü | 2021-ci ilin ikinci rübü | 2021-ci ilin üçüncü rübü | 2021-ci ilin dördüncü rübü |
|---|---|---|---|---|---|
| 1. | İşçilərin sayı | 286 | 291 | 293 | 288 |
| 2. | İşə qəbul | 1 | 8 | 5 | 5 |
| 3. | İşdən azad olma | 4 | 4 | 3 | 10 |

11. **Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

| № | Səhmdarların ümumi yığıncaqı | Direktorlar Şurası | Baş İcraçı Direktor |
|---|---|---|---|
| 1. | Həsənov Nəsib Cabbar oğlu | Özkaya Adnan Nuri | Sasse Henning |
| 2. | | Əhmədzadə İmran Elxan oğlu | |
| 3. | | Bedineishvili George | |
| 4. | | Şener Mehmet Hayrettin | |
| 5. | | Cabbarov Yusif Həsən oğlu | |

| | | | |
|---|---|---|---|
| 6. | | Asəliyev İsrail Adil oğlu | |

**12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı:**

1(bir) fiziki şəxs

**13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:**

| № | Səhmdar (fiziki şəxsin soyadı, adı, atasının adı | Səhmlərin miqdarı | Nizamnamə kapitalında payı |
|---|---|---|---|
| 1. | Həsənov Nəsib Cabbar oğlu | 161.962.595 | 100% |

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):**

Emitentin nizamnamə kapitalında payı beş faizdən az olmayan hüquqi şəxs yoxdur.

**15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

| № | Səhmdarların Ümumi Yığıncağı nın keçirilmə tarixi | Səhmdarların Ümumi Yığıncağının keçirilmə yeri | Səhmdarların Ümumi Yığıncağında qəbul edilmiş qərarlar |
|---|---|---|---|
| 1. | 18 yanvar 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1. George Bedineishvilinin Cəmiyyətin Direktorlar Şurasında üzvlüyünün müddətinin davam etdirilməsi. |
| 2. | 29 yanvar 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1. Cəmiyyət tərəfindən Qarabağ Dirçəliş Fonduna ianə olaraq 600.000,00 (altı yüz min) AZN köçürülməsi. |
| 3. | 29 iyun 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1. Müstəqil auditor-"Deloitte and Touch" MMAC tərəfindən yoxlanılıb təsdiq olunmuş Cəmiyyətin 2020-ci il üzrə maliyyə hesabatının təsdiq edilməsi.<br>2. Cəmiyyətin 2020-ci ilə qədər olan dövrə aid fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətinin 1.700.000,00 (bir milyon yeddi yüz min) Azərbaycan manatı məbləğində olan hissəsinin dividend kimi Cəmiyyətin səhmdarına ödənilməsi. |
| 4. | 16 sentyabr 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1.Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin maddi-texniki bazasının möhkəmləndirilməsinə |

| | | | |
|---|---|---|---|
| | | | dəstək olmaq məqsədilə ümumi dəyəri 941.875,00 AZN (doqquz yüz qırx bir min səkkiz yüz yetmiş beş manat ) olan kompüter tomoqrafi və UPS-in alınması<br>2. Alınan kompüter tomoqrafi və UPS-in ianə olaraq Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Prezidentinin Təhlükəsizlik Xidmətinə təhvil verilməsi. |
| 5. | 11 noyabr 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1. Cəmiyyət tərəfindən "Xalq Bank" ASC-yə kredit xətlərinin istifadəsi üçün müraciət edilməsi. |
| 6. | 11 noyabr 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1. "Xalq Bank" ASC (bundan sonra "Bank" adlandırılacaq) ilə Həsənov Nəsib Cabbar oğlu (bundan sonra "Borcalan" adlandırılacaq) arasında bağlanmış 26.11.2019-cu il tarixli 100109976562819 saylı Kredit müqaviləsi (bundan sonra "Kredit müqaviləsi" adlandırılacaq; bu müqaviləyə bağlanmış bütün əlavə sazişlər nəzərə alınmaqla) üzrə 19.814.500,00 (on doqquz milyon səkkiz yüz on dörd min beş yüz) ABŞ dolları məbləğində kredit borcunun qaytarılması üzrə yeni müddətin (26.11.2022-ci il tarixədək) müəyyən olunması yolu ilə restrukturizasiyası barədə müraciətini nəzərə alaraq, Kreditin təminatı qismində çıxış edən Bank və "Norm" ASC arasında bağlanmış 26.11.2019-cu il tarixli 100109976562819/GM saylı Girov müqaviləsinə (bundan sonra "Girov müqaviləsi" adlandırılacaq; bu müqaviləyə bağlanmış bütün əlavə sazişlər nəzərə alınmaqla) müvafiq dəyişikliklərin edilməsi. |
| 6. | 28 dekabr 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1.Cəmiyyət tərəfindən "Naxçıvanın İnkişafı və Müdafiə Fondu"na 500.000,00 AZN( beş yüz min) ianə olaraq köçürülməsi.<br>2. Cəmiyyət tərəfindən "YAŞAT" Fonduna 500.000,00 AZN( beş yüz min) ianə olaraq köçürülməsi. |
| 7. | 30 dekabr 2021 | Bakı şəhəri | **Qəbul edilmiş qərarlar:**<br>1. Cəmiyyət tərəfindən Distribütorlara cəmi məbləğ 659.458,00 manat olmaqla, satılmış hər ton sement üçün 2.5 manat (hər kisə üçün 10 qəpik) ödənilməsi. |

**16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):**

| İnvestisiya qiymətli kağızın | İnvestisiya qiymətli kağızlar | İnvestisiya qiymətli kağızların | İnvestisiya qiymətli kağızlar | Hesabat ili ərzində emitent | Faizli istiqrazlar buraxılışı | İnvestisiya qiymətli kağızların |
|---|---|---|---|---|---|---|

| növü və forması | buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | miqdarı və nominal dəyəri | buraxılışının məcmu nominal dəyəri | tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat | haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer |
|---|---|---|---|---|---|---|
| Adi sənədsiz adlı səhm | AZ1001021802 19 noyabr 2019-cu il | 161.962.595 ədəd 1(bir) manat | 161.962.595 (bir yüz altmış bir milyon doqquz yüz altmış iki min beş yüz doxsan beş) manat | 1.700.000,00 (bir milyon yeddi yüz min) manat məbləğində dividend ödənilib | İstiqrazlar buraxılmayıb | Yoxdur |

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

Hesabat dövrü ərzində xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

Hesabat dövrü ərzində aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır

**19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:**

20 iyun 2022-ci il

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat:**

"Norm" ASC-nin rəsmi internet səhifəsi: www.norm.az

**Baş icraçı direktor** **Henning Sasse**

**Baş maliyyə direktoru** **Elvin Mirzəyev**

AZƏRBAYCAN RESPUBLİKASI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ NORM OPEN JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**Hesabatın hazırlanma tarixi:** 15.06.2022-ci il